Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

## HÜQUQ JURNALI




№ 08 avqust 2017

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



*Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



QANUNÇULUQ

HÜQUQ JURNALI

№ 08 AVQUST 2017

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**

(012) 539-76-75



Qaynar xətt

Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:


## RƏSMİ MƏLUMAT



Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana rəsmi səfəri ....................4
Regionların sosial-iqtisadi inkişafı diqqət mərkəzindədir (Azərbaycan Prezidenti İlham Əliyevin şimal-qərb və qərb bölgəsinə səfəri) ....................7

## ƏDLİYYƏ NAZİRLİYİNDƏ



Ədliyyə naziri Zaqatala rayonunda vətəndaşları qəbul edib....................17
Avropa Şurası ölkəmizdə aparılan hüquqi islahatları təqdir edir....................18

## MƏLUMATLAR, ELANLAR...

Hakimlər üçün ixtisasartırma kursu....................19
Bələdiyyələrin hüquqi maarifləndirilməsi üçün ardıcıl tədbirlər görülür ....................19
Notariat fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərin sənədlərinin qəbulu başa çatır ....................19

## EKSKURSİYA



Ədliyyə işçilərinin Qax rayonuna istirahət-gəzinti turu....................20

## YENİ QANUNLAR, FƏRMANLAR...

“Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Əlcəzair Xalq Demokratik Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı....................22
”İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu....................22
”Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu....................23

## KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARLARI

“Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı....................24



# Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana rəsmi səfəri

**Avqustun 8-9-da Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycanda rəsmi səfərdə olub.**

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü olub. Dövlətimizin başçısı ölkələrimizin bir sıra sahələrdə çox uğurlu əməkdaşlıq etdiyini və bu əlaqələrin dərinləşəcəyini vurğulayıb, siyasi, iqtisadi, humanitar, mədəniyyət, nəqliyyat və digər sahələrdə inkişaf və əməkdaşlıq üçün çox yaxşı imkanların olduğunu qeyd edib, səfərin Türk-



*Təkbətək görüş*



*Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması*

mənistan-Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafında çox mühüm addım olacağını bildirib.

Müasir dövrdə Türkmənistan-Azərbaycan münasibətlərinin özünün yeni mərhələsini yaşadığını deyən Prezident Qurbanqulu Berdiməhəmmədov ölkələrimizin dünyada təhlükəsizlik, firavanlıq, sabitlik və inkişaf üçün hər şeyi etdiyini, BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyət göstərdiyini, bir-birini dəstəklədiyini vurğulayıb, ticari-iqtisadi, mədəni-humanitar sahələrdə münasibətlərdən bəhs edib.

Nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edən görüşdə dost, qardaş, qonşu dövlətlərimiz arasında əməkdaşlıq əlaqələrinin bütün sahələrdə daha da inkişaf etdirilməsi, genişləndirilməsi və möhkəmləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb. Siyasi, iqtisadi, energetika, nəqliyyat, mədəniyyət, təhsil və digər sahələrdə əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğu vurğulanıb.

Sonra dövlət başçılarının iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub. "Azərbaycan Respublikası ilə Türkmənistan arasında Strateji tərəfdaşlıq haqqında Bəyannamə"ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov imzalayıblar.

Həmçinin, "Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə beynəlxalq birbaşa dəmir yolu-bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında Saziş"ə əlavə və dəyişikliklər edilməsi barədə Protokol, Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Türkmənistanın Maliyyə Nazirliyi arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Türkmənistanın Turizm üzrə Dövlət Komitəsi arasında turizm sahəsində əməkdaşlıq haqqında, iki ölkənin Daxili İşlər nazirlikləri arasında əməkdaşlıq

haqqında, Azərbaycan və Türkmənistan hökumətləri arasında dəniz ticarət gəmiçiliyi, baytarlıq, müəlliflik hüququ və əlaqəli hüquqların qorunması, mülki müdafiə, fövqəladə halların qarşısının alınması və aradan qaldırılması, ətraf mühitin mühafizəsi, mədəniyyət sahələrində əməkdaşlığa dair sazişlər və energetika sahəsində əməkdaşlığın gələcək inkişafı haqqında Anlaşma Memorandumu imzalanıb.

Sənədlərin imzalanması mərasimindən sonra Prezident İlham Əliyev və Prezident Qurbanqulu Berdiməhəmmədov mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlətimizin başçısı Türkmənistan-Azərbaycan əlaqələrinin ən yüksək səviyyədə olduğunu, bu əlaqələrin təməlində xalqlarımızın birliyinin, dostluğunun, qardaşlığının dayandığını vurğulayıb, Türkmənistan Prezidentinin rəhbərliyi ilə qonşu dövlətin əldə etdiyi uğurlardan bəhs edib. Həmçinin bəyanatda imzalanan sənədlərin əhəmiyyəti qeyd olunaraq bir çox sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğu bildirilib.

Prezident Qurbanqulu Berdiməhəmmədov bəyanatında Azərbaycan ilə əlaqələrin qarşılıqlı hörmət, bərabərlik və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri əsasında dinamik və yüksələn xətlə inkişaf etdiyini, Azərbaycanın ölkəsi üçün mühüm və etibarlı tərəfdaş olduğunu vurğulayıb, Mərkəzi Asiya, Xəzər hövzəsi zonasında sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi, burada səmərəli əməkdaşlıq mexanizmlərinin qurulması üçün müvafiq şəraitlərin yaradılması məqsədilə uğurlu qarşılıqlı fəaliyyəti qeyd edib.

Əməkdaşlığımızın strateji istiqamətlərinin energetika və nəqliyyat olduğunu deyən Türkmənistan Prezidenti ölkələrimizin enerji daşıyıcılarının istehsal həcminə görə Avrasiyada lider mövqeləri tutduğunu, səfər zamanı bu və digər sahələrdə əlaqələrin daha da inkişafı və həvəsləndirilməsi üzərində ümumi razılıq əldə olunduğunu söyləyib, iki ölkə arasında əməkdaşlığın bütün istiqamətlər üzrə durmadan inkişaf edəcəyini bəyan edib.

Sonra Prezident İlham Əliyevin adından Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun şərəfinə rəsmi ziyafət verilib. Dövlət başçıları ziyafətdə çıxış ediblər.

Səfər zamanı Türkmənistan Prezidenti Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Ali qonaq Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Həmin gün Baş nazir Artur Rasi-zadə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşüb. Görüşdə ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivləri müzakirə olunub, Xəzər dənizinin hüquqi statusunun həlli yolları, geosiyasi və geoiqtisadi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Avqustun 9-da Milli Məclisinin sədri Oqtay Əsədov Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşüb. Görüşdə dost və qardaş ölkələrimiz arasında əlaqələrin inkişafından danışılıb. Yüksək səviyyəli qarşılıqlı səfərlərin münasibətlərin inkişafında böyük rol oynadığı bildirilərək ölkələrimiz arasında mövcud hüquqi bazanın daha da möhkəmləndirildiyi vurğulanıb.

Ali qonaq Azərbaycanın və Türkmənistanın qanunverici orqanları arasındakı əməkdaşlığı yüksək qiymətləndirib, ölkələrimizin beynəlxalq səviyyədə birgə fəaliyyətindən, qarşılıqlı etimad və dəstəkdən razılığını bildirib.

Səfər çərçivəsində Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Heydər Əliyev Mərkəzində olub. Türkmənistanın dövlət başçısına müasir Bakının rəmzinə çevrilən Mərkəzin fəaliyyəti haqqında məlumat verilib. Ali qonaq Mərkəzdəki "Azərbaycan inciləri" sərgisi ilə tanış olub, Mərkəzin xatirə kitabına ürək sözlərini yazıb.

Elə həmin gün Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycan Respublikasına rəsmi səfəri başa çatıb.

# Regionların sosial-iqtisadi inkişafı diqqət mərkəzindədir

*Azərbaycan Prezidenti İlham Əliyevin şimal-qərb və qərb bölgəsinə səfəri*

**Avqustun 3-də respublikamızın şimal-qərb bölgəsinə səfər edən ölkə Prezidenti İlham Əliyev əvvəlcə Balakən rayonunda olub, bir çox sosial obyektlərin açılışını həyata keçirib, rayonda aparılan abadlıq-quruculuq işləri ilə tanış olub.**

Balakən Su Elektrik Stansiyasının açılışı zamanı dövlətimizin başçısına məlumat verilib ki, Balakən çayı üzərində tikilmiş və ümumi gücü 1,5 meqavat olan bu stansiyada saniyədə 63 kubmetr suburaxma qabiliyyəti olan sutullayıcı, saniyədə 23 kubmetr suburaxma qabiliyyəti olan suqəbuledici yaradılıb. Stansiyanın inşası zamanı uzunluğu 2 min metr, diametri isə 1550 millimetr olan boru, 10 və 0,4 kilovoltluq yarımstansiya və elektrik verilişi xətləri çəkilib, hər birinin gücü 0,5 meqavat olan üç hidroturbin və hidrogenerator quraşdırılıb.

İldə 10 milyon kilovat-saat elektrik enerjisi istehsalı gücünə malik stansiya rayonun tələbatının 15 faizini, Balakən şəhərinin tələbatının isə 25-30 faizini ödəyəcək.

Balakən şəhərində inşa olunan Bayraq Muzeyinin açılışı zamanı isə muzeylə tanış olan ölkə Prezidentinə məlumat verilib ki, ümumi sahəsi 510 kvadratmetr olan binada zallar və konfrans otağı yaradılıb. Ekspozisiya zalında maraqlı eksponatlar sərgilənir. Burada müxtəlif dövrlərdə Azərbaycanda atribut kimi qəbul edilmiş bayraqlar, gerblər, o cümlədən Nuxa, Yelizavetpol, Naxçıvan, Quba, Şuşa, Şamaxı, Lənkəran, Zaqatala qəzalarının və Bakı quberniyasının, Azərbaycan SSR-in, Azərbaycan İctimai Şuralar Cəmiyyətinin və müstəqil Azərbaycanın gerbinin fotoları nümayiş etdirilir. Muzeydə Azərbaycanın Səfəvilər, Ağqoyunlu, Qaraqoyunlu və Eldəgizlər dövlətləri dövründəki, həmçinin 1918-1920-ci illərdəki və 1991-ci ildəki xəritələri də var. Güc strukturlarının geyimlərinin, tarixin müxtəlif dövrlərində ölkəmizdə istifadə edilən sikkələrin, pulların nümayiş olunduğu ekspozisiyalar da maraq doğurur.

Eyni zamanda, uzunluğu 24,5 kilometr, eni isə 10 metr olan Balakən-Sarıbulaq-Qabaqçöl-Xalatala



avtomobil yolunun istifadəyə verilib ki, bu da 15 yaşayış məntəqəsinin 44 min nəfər əhalisinin gediş-gəlişini xeyli rahatlaşdıracaq.

Dövlətimizin başçısı rayonda "ABAD Mərkəz"in açılışında da iştirak edib. Ölkə rəhbərinə əvvəlcə "ABAD" layihəsi çərçivəsində görülən işlər barədə məlumat verilib. Layihənin məqsədi kiçik və orta sahibkarlığın inkişafına, məşğulluq səviyyəsinin artırılmasına, rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına, ölkədə regionların və kənd təsərrüfatının inkişafına dəstək verməkdir. Qeyri-kommersiya və sosialyönümlü qurum olan "ABAD" yeganə ictimai təşkilatdır ki, ailə təsərrüfatının "ideyadan rəflərə" daşınmasına kömək edir.

Ötən ilin oktyabrında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi arasında "ABAD mərkəz"lərin fəaliyyət sahələrində Korporativ Əməkdaşlıq Sazişi imza-






*Balakən şəhərində inşa olunmuş Bayraq Muzeyinin açılışı*

lanıb. Əməkdaşlıq çərçivəsində Balakən rayonunun "ABAD" layihəsi 2-ci pilot layihə olaraq müəyyən edilib. SOCAR-ın dəstəyi ilə 12 ailəyə 9 meyvə, 2 süd və 1 ət emalı üçün xüsusi istehsal avadanlığı ilə təchiz edilmiş konteynerlər təhvil verilib.

Prezident İlham Əliyev "ABAD" layihəsi çərçivəsində Balakəndə və digər rayonlarda istehsal edilən məhsullara baxıb, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Daha sonra Zaqatala rayonuna səfər edən dövlətimizin başçısı burada tütün emalı zavodunun fəaliyyəti və "AzRose" MMC-nin tikintisi davam edən qızılgül yağı istehsalı müəssisəsi ilə tanış olub, "Bəhmətli" elektrik yarımstansiyasının açılışda iştirak edib.

"Azərtütün" MMC-nin Zaqatala rayonundakı tütün emalı zavodu 2010-cu ildə istifadəyə verilib. Zavod ABŞ, İtaliya və Bolqarıstan istehsalı olan müasir avadanlıqlarla təchiz olunub. Hazırda Zaqatala, Şəki və Qax rayonlarında Bolqarıstandan alınmış hər birinin tutumu 10 ton yaş tütün olan cəmi 180 tütünqurutma kamerasından ibarət 3 tütün qəbulu-qurudulması məntəqəsi fəaliyyət göstərir. Hər məntəqə mövsüm ərzində 10 min ton yaş tütün qəbulu və 1000 tona yaxın quru tütün əldə etmək gücünə malikdir.

Qızılgül yağı istehsalı müəssisəsində isə istehsalat bölməsi, anbar, ofis və digər infrastruktur obyektləri tikilib. Ərazidə suvarma məqsədləri üçün su tutumu 5 min kubmetr olan süni göl yaradılıb, damcı suvarma sistemi qurulub, kənd təsərrüfatı texnikaları alınıb, ərazidə 3 artezian quyusu qazılıb, qaz və elektrik xətləri çəkilib, müasir işıqlandırma sistemi qurulub və yaşıllıq zolaqları salınıb.

Müəssisə ilə tanışlıq zamanı ölkə rəhbərinə məlumat verilib ki, Zaqatala rayonunun Aşağı Tala kəndində gülçülüyün inkişaf etdirilməsi məqsədilə 107 hektar torpaq sahəsi müəyyənləşdirilib. Bolqarıstandan gətirilmiş tinglərdən 82 hektarda "Dəməşq qızılgülü" və 25 hektarda "Lavanda" gülü növləri üzrə gül plantasiyaları salınıb. Bu plantasiyalarda ilkin mərhələdə təxminən 600 ton gül ləçəyinin toplanması nəzərdə tutulub. "Dəməşq qızılgülü"ndən istehsal olunan yağ həm məhsuldarlığına, həm də keyfiyyətinə görə ən yaxşısı hesab olunur. Bolqarıstandan gətirilmiş "Lavanda" gülü






*Balakən şəhərində "ABAD Mərkəz"in açılışı*





*Zaqatala rayonu tütün emalı zavodunun fəaliyyəti ilə tanışlıq*

növünün Fransa və Türkiyə "Lavanda" növlərindən yağlılıq dərəcəsi 20 faiz çoxdur. İllik gücü 1250 ton yaş gül, 250 litr qızıl gül və 6 min litr "Lavanda" gül yağı olan müəssisədə istehsal edilən yağlar "AzRose" adı ilə bazarlara çıxarılacaq. Gələcəkdə isə həmin yağlardan istifadə etməklə müxtəlif ətriyyat, yuyucu, məişət və qida sənayesində istifadə olunan məhsulların istehsalı nəzərdə tutulur.

Dövlət başçısının rayona səfəri zamanı istifadəyə verilən 110/35/10 kV-luq "Bəhmətli" elektrik yarımstansiyasında 2x10 MVA gücündə yeni transformatorlar quraşdırılıb. Eyni zamanda, yarımstansiyada 110 və 35 kV-luq açıq paylayıcı şəbəkə inşa edilib. Həmçinin yarımstansiyadan 35/10 kV-luq "Muğanlı" və 35/6 kV-luq "Qaraçay" yarımstansiyalarını qidalandıran 35 kV-luq Muğanlı hava xəttinin çıxışı kabellə əvəzlənib. Tam yenidən qurulan yarımstansiyadakı qurğularda müasir standartlara cavab verən elektrik avadanlıqları, elektron tipli rele mühafizə və avtomat sistemlər, yarımstansiyanın məsafədən idarə olunması üçün SCADA dispetçer sisteminə qoşulmasını təmin edən avadanlıqlar quraşdırılıb. "Bəhmətli" yarımstansiyası Bəhmətli, Suvagil, Dağlı, Mosul, Yengiyan, Lahıc, Kürdəmir, Muğanlı, Qandax, Kəpənəkçi, Çüdülübinə kəndlərinin və Əliabad qəsəbəsinin 9 minə yaxın abonentini keyfiyyətli elektrik enerjisi ilə təmin edəcək.

Şimal-qərb bölgəsinə səfəri çərçivəsində Prezident İlham Əliyev Qax rayonunda da olub. Əvvəlcə ümumi uzunluğu 23,5 kilometr olan Alatəmir-Marsan-Tasmalı-Zəyəm-Lələli avtomobil yolunun açılışında iştirak edən dövlətimizin başçısı sonra Ləlpaşa kəndinin sakini Allahverdi Şirinovun fındıqçılıq təsərrüfatında yaradılan şəraitlə tanış olub. Bildirilib ki, 3,4 hektar sahədə salınan bağda 130 fındıq ağacı var. Böyük məhsuldarlığın gözlənildiyi təsərrüfatda bu il 2 tondan çox məhsulun yığılması planlaşdırılır.

Həmin gün Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qorağan-Qax hissəsi də istifadəyə verilib. Dövlətimizin başçısı rayonda Bayraq Muzeyinin açılışında da iştirak edib. Bayraq Meydanının ərazisində inşa olunmuş ümumi sahəsi 730 kvadratmetr olan muzeydə milli bayrağımızın təbliği ilə bağlı xüsusi eksponatlar və dövlət atributları sərgilənir. Ekspozisiya zalında Azərbaycanda mövcud olmuş dövlətlərin bayraqlarına və bayraqla bağlı atributlara geniş yer verilib. Bu eksponatlar Azərbaycan dövlətçiliyinin keçdiyi tarixi yolu əks etdirməklə yanaşı, həm də gənc nəsil üçün xüsusi





*Zaqatala rayonu "Bəhmətli" elektrik yarımstansiyasının istifadəyə verilməsi*




*Qax rayonu Ləläpaşa kəndinin sakini Allahverdi Şirinovun fındıqçılıq təsərrüfatında yaradılan şəraitlə tanışlıq*

əhəmiyyətə malikdir.

Ölkə rəhbəri həmçinin, tütün qəbulu məntəqəsində yaradılan şəraitlə tanış olub, 110/35/10 kV-luq yeni elektrik yarımstansiyasının istifadəyə verilməsi mərasimində iştirak edib. Dövlət başçısı Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qaxda inşa olunmuş 180 yerlik körpələr evi-uşaq bağçasının açılışını da edib.

Ərazisi 2124 kvadratmetr olan üçmərtəbəli uşaq bağçasının binasında uşaqların təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb. Dərs otaqlarının hamısı zəruri avadanlıq və əyani vasitələrlə təchiz olunub. Yataq otaqları uşaqların zövqünə uyğun qurulub. Bundan əlavə, idman zalı və yeməkxanada da yüksək şərait var. Bağçanın həyətində balacaların istirahəti üçün meydançalar salınıb və attraksionlar quraşdırılıb.

Avqustun 4-də Qaxa səfəri çərçivəsində Prezident İlham Əliyevin sədrliyi ilə barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib. Müşavirədə çıxış edən dövlətimizin başçısı bölgəyə xas olan ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı üzrə görülən işlərdən ətraflı bəhs edib, qarşıda duran vəzifələrdən danışaraq müvafiq tapşırıqlar verib.

Sonra Prezident İlham Əliyev Şəki-Zaqatala iqtisadi rayonunda tütünçülüyün, fındıqçılığın və baramaçılığın inkişafını əks etdirən sərgi ilə tanış olub.

Dövlət başçısı şimal-qərb bölgəsinə səfərindən sonra Balakən, Zaqatala və Qax şəhərlərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi və digər sosial layihələrin icrası ilə bağlı ümumilikdə 6 sərəncam imzalayıb. Belə ki, Balakən və Zaqatala rayonlarında yol infrastrukturunun tikintisinə ümumilikdə 11,9 milyon manat, Balakən şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi, habelə Uşaq İncəsənət Məktəbinin yeni binasının tikilməsi, Zaqatala və Qax şəhərlərində abadlıq-quruculuq işləri və çoxmənzilli binaların əsaslı təmirinin həyata keçirilməsi üçün hər birinə ayrı-ayrılıqda 3 milyon manat, Qax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində həyata keçirilən işlərin davam etdirilməsi məqsədilə isə 2,99 milyon manat vəsait ayrılıb.




*Qaxda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş körpələr evi-uşaq bağçasının açılışı*





*Göygöl rayonu "Çiçəkli" Su Elektrik Stansiyasının istifadəyə verilməsi*

**Avqustun 19-da Azərbaycan Prezidenti qərb bölgəsinə səfər edib. Əvvəlcə Göygöl rayonunda səfərdə olan dövlətimizin başçısı Qələbə parkında yaradılan şəraitlə tanış olub, əsaslı şəkildə yenidən qurulan 4 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.**

100 uşaq yerlik körpələr evi-uşaq bağçasının ikimərtəbəli binasında oyun, yemək və yataq otaqları, tədris otağı, musiqi zalı, mətbəx, həkim otağı və anbarlar yaradılıb. Binada uşaqların istirahəti və əyləncəsi üçün hərtərəfli şərait yaradılıb ki, bu da balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı üçün olduqca əhəmiyyətlidir.

Eyni zamanda, Göygöl rayonunun Aşağı Zurnabad qəsəbəsi ərazisindəki 3 MVt-luq "Çiçəkli" Su Elektrik Stansiyası əsaslı yenidənqurmadan sonra istismara verilib.

Müasir səviyyədə qurulan stansiyada hər birinin gücü 1 MVt olan 3 hidroturbin və 3 hidrogenerator quraşdırılıb. 35/6/0,4 kV-luq yarımstansiyalar yaradılıb və elektrik verilişi xətləri çəkilib. İqtisadi və sosial cəhətdən olduqca əhəmiyyətli olan "Çiçəkli" Su Elektrik Stansiyası ildə 20 milyon kVt-saat elektrik enerjisi istehsal etmə gücünə malik olmaqla Göygöl rayonunun tələbatının 15 faizini, Göygöl şəhərinin tələbatının isə 75 faizini ödəyəcək. Dövlətimizin başçısı stansiyanı işə salıb.

Prezident İlham Əliyev Kənd Təsərrüfatı Nazirliyinin Göygöl Rayon İdarəsinin inzibati-laboratoriya binasında və zona baytarlıq laboratoriyasında yaradılan şəraitlə tanış olub, sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Rayona səfəri çərçivəsində ölkə rəhbəri Respublika Süni Mayalanma Mərkəzinin açılışında iştirak edib.

Ölkədə heyvan mənşəli məhsulların istehsalını artırmaq, mal-qaranın cins tərkibini yaxşılaşdırmaq, süni mayalanma tədbirlərinin həyata keçirilməsini sürətləndirmək baxımından müstəsna rol oynayan Respublika Süni Mayalanma Mərkəzinin komplek-





*Göygöldə Respublika Süni Mayalanma Mərkəzinin açılışı*





*Zazalı-"İmamzadə" kompleksi-Gəncə avtomobil yolunun açılışı*

sinə üçmərtəbəli inzibati-laboratoriya binası, tövlə, yem anbarı və yemhazırlama sahəsi, baytarlıq klinikası, karantin məntəqəsi daxildir.

Dövlət başçısı mobil laboratoriya və genetik materialların paylanması üçün istifadə edilən avtonəqliyyat vasitələrinə baxıb, müəssisənin istehsalat sahəsində yaradılmış şəraitlə tanış olub.

Prezident İlham Əliyev həmin gün Samux rayonuna da səfər edib. Səfər çərçivəsində ölkə başçısı əvvəlcə uzunluğu 19 kilometrdən çox olan Zazalı-"İmamzadə" kompleksi-Gəncə avtomobil yolunun açılışında iştirak edib. Bu yolun tikilməsi Gəncə şəhərinin şimal hissəsindən keçən əlavə dairəvi avtomobil yolu rolunu oynayaraq, Samux, Şəmkir, Tovuz, Qazax, Gürcüstan ilə dövlət sərhədi istiqamətində və əksinə hərəkət edən nəqliyyat vasitələrinin Gəncə şəhərinin mərkəzinə daxil olmadan yük və sərnişin daşımasını təmin etməyə imkan verəcək. Eyni zamanda, bu yol vasitəsilə əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olan, Gəncədəki VIII əsrə aid tarixi memarlıq abidəsi kimi qorunan "İmamzadə" dini-mədəniyyət kompleksinə ziyarətçilərin rahat gediş-gəlişi təmin ediləcək.

Dövlətimizin başçısı Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin birinci mərhələsi üzrə qurğular da daxil olmaqla 8,55 kilometrlik hissəsinin istifadəyə verilməsi mərasimində və Samux-Füzuli-Lək-Əlibayramlı-Qarabağlar-Çobanabdallı-Samux avtomobil yolunun açılışında iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Səfər zamanı həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə Samuxda inşa olunmuş 100 yerlik körpələr evi-uşaq bağçasının açılışı olub.

Tədbirdə iştirak edən dövlətimizin başçısına məlumat verilib ki, müxtəlif yaş qruplarının fəaliyyət göstərəcəyi ikimərtəbəli bağçada uşaqların təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb, dərs otaqlarının hamısı zəruri avadanlıq və əyani vasitələrlə təchiz olunub, yataq otaqları uşaqların zövqünə uyğun qurulub. Bundan əlavə, idman zalında və yeməkxanada da yüksək şərait yaradılıb. Körpələr evi-uşaq bağçasının həyətində balacaların istirahəti üçün meydançalar salınıb, attraksionlar quraşdırılıb.





*Samux Aqroenerji Yaşayış Kompleksi ilə tanışlıq*




Gədəbəy rayonu limonad zavodunun istifadəyə verilməsi

Ölkə rəhbəri Samux Aqroenerji Yaşayış Kompleksi ilə tanış olub. Alternativ və bərpa olunan enerji mənbələri hesabına hibrid tipli günəş, külək, geotermal, enerji və bioenerji istehsalı stansiyasından, enerji təminatlı kənd təsərrüfatı məhsullarının tədarükü, emalı, satışı sahələrindən ibarət olan Samux Aqroenerji Yaşayış Kompleksi özündə yüksək texnologiyaları, müasir idarəetmə sistemlərini birləşdirir. Kompleks alternativ və bərpa olunan enerji mənbələri hesabına işləyən hibrid enerji stansiyasında il ərzində istehsal ediləcək 120 milyon kilovat/saatdan artıq elektrik və 100 min heka kaloridən çox istilik enerjisi rayonun enerjiyə tələbatını tam ödəməklə, ildə 60 milyon kubmetr təbii qaza qənaət olunmasına və atmosferə buraxılan karbon qazının həcminin 90 min ton azaldılmasına imkan verəcək. Bununla yanaşı, aqrokompleksin fəaliyyəti ildə on minlərlə ton meyvə-tərəvəz, süd və ət məhsullarının istehsalına, 2000-dən çox daimi yeni iş yerinin açılmasına şərait yaradacaq. Həmçinin, "Azguntex" zavodunda hazırlanan meyvə quruducuları, soyuducu kameralar və səyyar rejimdə fəaliyyət göstərən günəş işıqlanması ilə təmin olunmuş turist çadırları, günəş əsaslı yol işıqlanma sistemləri tətbiq edilib.

Qərb bölgəsinə səfəri çərçivəsində avqustun 20-də Gədəbəy rayonuna gələn Prezident İlham Əliyev limonad zavodunun, 110/35/10 kilovoltluq yeni "Gədəbəy" elektrik yarımstansiyasının, Heydər Əliyev Mərkəzinin, rayonun içməli su təchizatı layihəsinin açılışlarında iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

"Gədəbəy Mineral Suları" MMC-nin illik istehsal gücü 6 milyon litr olan limonad zavodu müxtəlif çeşiddə, o cümlədən 0,5 və 1 litrlik şüşə, həmçinin plastik qablarda süfrə suları istehsal edir. Zavodda istehsal olunan süfrə suları hazırda Rusiya Federasiyasına ixrac edilir və ərəb ölkələrinə ixracı istiqamətində danışıqlar aparılır. Artıq limonadın İraq Respublikasına ixrac olunması üçün müqavilə bağlanıb.

Yeni istifadəyə verilən "Gədəbəy" elektrik yarım-




Gədəbəy rayonunun içməli su təchizatı layihəsinin açılışı




*Gədəbəy rayonu Heydər Əliyev Mərkəzinin açılışı*

stansiyası isə 21 min abonentə xidmət edir. Yarımstansiyada 110 kV-luq açıq, 35 və 10 kV-luq qapalı paylayıcı qurğular inşa edilib və bu qurğularda müasir standartlara cavab verən elektrik avadanlığı, elektron tipli avtomat rele mühafizəsi quraşdırılıb.

Dövlət başçısının açılışını etdiyi Heydər Əliyev Mərkəzində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Gədəbəy rayonuna səfərlərini əks etdirən fotolardan ibarət stendlər quraşdırılıb. Mərkəzin yerləşdiyi ərazidə hündürlüyü 70 metr olan bayraq dirəyi ucaldılıb. Bayraq dirəyinin ay-ulduz formasında inşa olunmuş postamentinin üzərində Azərbaycan Respublikasının gerbi, xəritəsi və dövlət himninin sözləri əks etdirilib.

Rəqs zalının, elektron kitabxananın yaradıldığı Mərkəzdə müxtəlif tədbirlərin keçirilməsi üçün 242 yerlik konfrans zalı var. Bundan əlavə, rəsm, foto və poliqrafiya studiyaları, heykəltəraşlıq dərnəyi, intellektual oyun otağı, saz emalatxanası, həmçinin ingilis, rus və fransız dilləri kabinetləri, o cümlədən ən müasir avadanlıqla təchiz olunan xidməti otaqlar fəaliyyət göstərəcək.

Heydər Əliyev Mərkəzində, həmçinin Vətəndaşlıq Vəziyyəti Aktlarının qeydiyyatı otağı yaradılıb. Burada nikaha daxil olmaq istəyən gənclərin qanunvericiliklə müəyyən edilmiş qaydada tibbi müayinəsi aparılacaq və onlara tibbi arayışlar veriləcək.

Rayonun içməli su təchizatı da müasir tələblər səviyyəsində qurulub, şəhərin dayanıqlı su təchizatını təmin etmək üçün ümumi həcmi 5500 kubmetr olan 7 su anbarı, 14,8 kilometr uzunluğunda magistral su kəməri və digər köməkçi infrastruktur inşa edilib. Bundan başqa, Gədəbəy şəhərində inşası planlaşdırılan 81 kilometr uzunluğunda paylayıcı su şəbəkəsinin, şəbəkədaxili iki nasos stansiyasının tikintisi başa çatıb, 2300 evə birləşmə verilib və sayğaclar quraşdırılıb. Yeni yaradılan su təchizatı sistemi ilə Gədəbəy şəhərinə fasiləsiz suyun verilməsi təmin edilib.

Həmin gün dövlətimizin başçısı Şəmkir rayonda da olub.

Səfər zamanı ölkə rəhbəri 5 min nəfər əhalinin yaşadığı 7 kəndi birləşdirən yolun ümumi uzunluğu 31 kilometr olan Şəmkir-Yeni Göyçə-Dağ Cəyir





*Şəmkir rayonunda əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanışlıq*





*Mobil Səhra Cərrahiyyə Hospitalının imkanları ilə tanışlıq*

avtomobil yolunun açılışında iştirak edib, əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış olub.

Muzeydə həm ölkəmizin, həm də Şəmkirin tarixini əks etdirən eksponatlar var. İkimərtəbəli muzey binasında miniatür rəsm sərgisi və ekspozisiya zalı, elektron informasiya lövhəsi və ekspozisiya zalı var. Muzeydə mövcud olan 6 minə yaxın eksponatdan 350-si ekspozisiya zallarında sərgilənir. Bu eksponatlar əsasən qədim tunc dövrünə və XVIII-XIX əsrlərə aiddir. Binanın həyətyanı sahəsində yaradılmış "Açıq muzey"də müxtəlif filmlərin personajlarının heykəlləri qoyulub.

Sonra dövlətimizin başçısı "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Şəmkir avtomat idarəetmə və nəzarət mərkəzinin açılışını edib, Müdafiə Nazirliyinin Mobil Səhra Cərrahiyyə Hospitalının imkanları ilə tanış olub.

Hospitalla tanışlıq zamanı məlumat verilib ki, əsas hissəsi 8 konteynerdən və 9 çadırdan ibarət olan mobil hospitalda gün ərzində 100 cərrahi əməliyyat aparmaq mümkündür. Hospital 2,5 min kvadratmetr sahədə açılır. Açıldıqdan bir saat sonra xəstələri qəbul edə, 4-6 saatdan sonra isə öz funksiyasını tam yerinə yetirə bilir. Burada gündə 150-dək xəstəyə tibbi xidmət göstərmək mümkündür. Hospital yaralıların və xəstələrin qəbulu, qeydiyyatı və diaqnozun qoyulması üçün nəzərdə tutulan çeşidləmə, idarəetmə və rabitə, həmçinin diaqnostika çadırlarından ibarətdir. Diaqnostika çadırında müayinələr aparmaq üçün rəqəmsal rentgen, USM, 12 kanallı elektrokardioqraf aparatları və 24 göstəricini eyni zamanda verən qan analizatoru mövcuddur. Həmçinin hospitalın 2 əməliyyat, 2 intensiv terapiya bloku və hər birində 8 çarpayı olan 6 müalicə çadırı var. Hospitalın özəlliyi onun konteyner və çadırlarının qısa müddətə hazır vəziyyətə gətirilməsindədir. Konteynerləri 5-7, çadırları isə 7-9 dəqiqəyə hazırlamaq mümkündür. Səyyar hospital şəxsi heyətin yataqxanası, aptek, mətbəx, hamam və sanitar qovşaqla təchiz olunub. Bütün konteynerlərdə və çadırlarda işıq, mərkəzləşdirilmiş havalandırma və yanğın əleyhinə xüsusi sistemlər quraşdırılıb.






*"Azərxalça" ASC-nin Şəmkir filialının açılışı*





*"Şəmkir Aqroparkı"nın Logistika Mərkəzinin istifadəyə verilməsi*

Dövlətimizin başçısı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Şəmkir filialının açılışında da iştirak edib. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq və Gəncə, Şəmkir, Samux, Daşkəsən, Göygöl, Gədəbəy, Goranboy rayonlarının kəndlərində toxunan orijinal Gəncəbasar xalça çeşnilərinə üstünlük veriləcək.

Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib. Filialda yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev xalçaçılarla görüşüb.

Ölkə Prezidentinin rayona səfəri zamanı "Şəmkir Aqroparkı"nın Logistika Mərkəzi də istifadəyə verilib. Mərkəzi işə salan dövlətimizin başçısına məlumat verilib ki, hüquq, maliyyə, biznesin inkişafı departamentinin yerləşdiyi Logistika Mərkəzində Fransanın tanınmış şirkətlərindən birinin meyvələri ölçüsünə, rənginə, zədəliyinə görə çeşidləyən və qablaşdıran avadanlıqları quraşdırılıb. İri ölçülü meyvələri çeşidləyən avadanlıqların gücü saatda 50 ton, kiçik ölçülü meyvələri çeşidləyən avadanlıqların gücü isə saatda 2 tondur. İstehsal sahəsində eyni zamanda 200 ton məhsul qəbul edə biləcək 2 terminal, 120 ton hazır məhsulu yola sala bilən 1 terminal mövcuddur. Mərkəzdə müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya fəaliyyət göstərir. Burada meyvə və tərəvəzlərin keyfiyyəti, toksikliyi, bakterioloji və mikrobioloji göstəriciləri üzrə analizlər aparılır.

Mərkəzdə regionda yetişdirilən xurmanın alıcılıq qabiliyyətini aşağı salan xüsusi dadın aradan qaldırılmasını təmin edən və gücü sutkada 1 ton olan "determing room" qurğusu da var. Mərkəzdə, eyni zamanda, İtaliyanın aparıcı şirkətlərindən birinin tutumu 24 min ton olan 71 ULO tipli soyuducu saxlama kamerası quraşdırılıb.

Dövlətimizin başçısına aqroparkın "Ceyrançöl" massivi ərazisində yerləşən hissəsində görülən işlər barədə də məlumat verilib. Sonda ölkə rəhbəri aqroparkda və Logistika Mərkəzində yaradılan imkanlardan daha səmərəli istifadə olunması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Bununla da ölkə Prezidentinin qərb bölgəsinə səfəri başa çatıb.

Səfərdən sonra Prezident İlham Əliyev qərb rayonlarında da abadlıq-quruculuq işlərinin davam etdirilməsi, sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə də sərəncamlar imzalayıb. Bu sərəncamlara əsasən Şəmkir, Gədəbəy, Samux və Göygöl rayonlarında abadlıq-quruculuq işlərinin davam etdirilməsi, çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi və fasad hissələrinin əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 4 rayonun icra hakimiyyətlərinə (hər rayon üçün 3 milyon manat) ümumilikdə 12 milyon manat vəsait ayrılıb.

Bütün bunlar onu deməyə əsas verir ki, regionların sosial-iqtisadi inkişafını daim diqqət mərkəzində saxlayan ölkə Prezidenti İlham Əliyevin görülən işlərlə yerində tanış olmaq, vətəndaşlarla birbaşa ünsiyyət quraraq mövcud çətinliklər barədə informasiyaları ilkin mənbədən almaq üçün Azərbaycanın müxtəlif rayonlarına vaxtaşırı səfər etməsi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir, xalqın öz Prezidentinə olan inamını, etimadını daha da artırır.

# Ədliyyə naziri Zaqatala rayonunda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq avqustun 25-də ədliyyə naziri Fikrət Məmmədov Zaqatala rayonu Heydər Əliyev Mərkəzində Zaqatala, Balakən, Qax və digər rayon və şəhərlərdən olan vətəndaşların qəbulunu keçirib.



Qəbuldan əvvəl nazir və Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, hakim və ədliyyə işçiləri ilə müşavirə keçirib.

Nazir ölkə Prezidentinin cari ilin fevralında imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyətini vurğulayaraq, vətəndaşların azadlıq hüququnun qorunmasına daha məsuliyyətlə yanaşılmasını, habelə şəffaflığın, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunmasının vacibliyini, eləcə də qərəzli yanaşmanın, korrupsiyaya şərait yaradan halların yolverilməzliyini qeyd edib, aidiyyəti tövsiyə və tapşırıqlar verib.

Eyni zamanda, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, rüşvətxorluğa, qanunsuz tələblərə və digər neqativ hallara son qoyulması, hər bir məmurun təvazökar olması ilə bağlı dövlət başçısının tələbləri diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşlara





daha həssas və qayğı ilə yanaşılması vurğulanıb.

Həmçinin, ölkə başçısının rəhbərliyi ilə məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə görülən tədbirlər çərçivəsində nazir Zaqatalada inşa olunan yeni müasir məhkəmə binasının tikintisinin gedişatı ilə tanış olub, lazımi tapşırıqlar verib.

# Avropa Şurası ölkəmizdə aparılan hüquqi islahatları təqdir edir

**Avqustun 31-də ədliyyə naziri Fikrət Məmmədov Avropa Şurasının (AŞ) Bakı Ofisinin səlahiyyət müddəti başa çatan rəhbəri xanım Draqana Filipoviç ilə görüşüb.**



AŞ ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatlarının Avropada təqdir olunan müsbət nəticələrini vurğulayıb, həyata keçirilən tədbirlərdə AŞ-nın dəstəyini və Bakı Ofisi ilə səmərəli qarşılıqlı fəaliyyəti qeyd edərək, xanım D.Filipoviçə uğurlar arzulayıb.

D.Filipoviç fəaliyyəti dövründə ölkəmizin, o cümlədən paytaxt Bakının inkişafının şahidi olduğunu, Azərbaycandakı multikulturalizm və tolerantlıq modelinin bir çox dövlətlər üçün nümunə olduğunu vurğulayıb, ölkəmizlə ədliyyə sahəsində əməkdaşlığı, məhkəmə-hüquq islahatlarının real uğurlu nəticələrini təqdir edib, Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planının icrasında Ədliyyə Nazirliyinin mühüm rolunu və töhfəsini qeyd edib.

AŞ-nın ölkəmizdə həyata keçirilən hüquqi islahatlara bundan sonra da dəstək göstərməyə hazır olduğunu söyləyən qonaq Bakı Ofisi ilə nazirlik arasındakı səmərəli işgüzar münasibətləri, ədliyyə işçilərinin peşəkar fəaliyyətini yüksək qiymətləndirib.

Görüşdə əməkdaşlığın perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

# Hakimlər üçün ixtisasartırma kursu

**Ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə həyata keçirilən islahatlar çərçivəsində hakimlərin tədrisinə xüsusi diqqət yetirilərək, bu sahədə Avropanın ən mütərəqqi modellərindən istifadə olunur, hakimlərlə sorğular keçirilərək onların tədrisinə ehtiyac bildikləri sahələr və mövzular öyrənilməklə tədris proqramları hazırlanır və Ədliyyə Akademiyası tərəfindən, o cümlədən beynəlxalq təşkilatlarla birgə mütəmadi tədris tədbirləri keçirilir.**

Avqustun 4-də Ədliyyə Akademiyasında hakimlər üçün "Şəhərsalma və Tikinti Məcəlləsinin tətbiqi məsələləri" mövzusunda ixtisasartırma kursu keçirilib.

Apellyasiya və birinci instansiya məhkəmələrindən 15 hakimin iştirak etdiyi kursda tikinti qaydaları hüququna ümumi giriş, Şəhərsalma və Tikinti Məcəlləsinin tətbiqi zamanı yol verilən nöqsanlar, Məcəllənin qüvvəyə minməsi ilə əlaqədar yaranan məhkəmə mübahisələri və digər aktual mövzular tədris olunub, hakimləri maraqlandıran suallar ətrafında faydalı fikir mübadiləsi aparılıb.

# Bələdiyyələrin hüquqi maarifləndirilməsi üçün ardıcıl tədbirlər görülür

**Avqustun 29-da Lənkəran regional ədliyyə idarəsinin təşkilatçılığı ilə Yardımlıda bələdiyyə üzvləri və qulluqçuları üçün seminar-müşavirə keçirilib.**

Tədbirdə Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması və onların işində qanunçuluğun möhkəmləndirilməsi üzrə görülən tədbirlərdən bəhs olunub, bələdiyyə üzvlərinin və qulluqçularının maarifləndirilməsinin və onlara metodiki kömək göstərilməsinin daim diqqət mərkəzində saxlanıldığı bildirilib.

Seminar-müşavirədə “Bələdiyyə üzvləri və qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunması yerli özünüidarənin rolunu gücləndirir,” “Korrupsiya hüquqpozmalarının qarşısının alınması və bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması,” “Bələdiyyələrdə kargüzarlığın təşkili” mövzusunda çıxış edilib, verilən suallar cavablandırılıb.

# Notariat fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərin sənədlərinin qəbulu başa çatır

**Ədliyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, Cəlilabad, Xızı, İmişli, Masallı, Quba, Samux, Saatlı, Şəmkir və Yardımlı rayonlarında vakant olan notarius vəzifələrinin komplektləşdirilməsi məqsədilə elan edilmiş müsabiqə üzrə sənədlərin qəbulu müddəti cari ilin sentyabr ayının 15-də başa çatacaq.**

"Notariat haqqında" Qanuna və "Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası"na əsasən toplanmış sənədlərin qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğunluğu Nazirlikdə araşdırılaraq İxtisas Komissiyasına təqdim olunacaq.

Test imtahanının vaxtı və yeri barədə Ədliyyə Nazirliyinin İxtisas Komissiyası tərəfindən məlumat veriləcəkdir.

Əlavə məlumatları nazirliyin internet saytından, habelə 404-42-28, 404-42-29 nömrəli əlaqə telefonları vasitəsilə əldə etmək mümkündür.

# Ədliyyə işçilərinin Qax rayonuna istirahət-gəzinti turu

**Zəngin tarixi-mədəni irsə, əlverişli təbii-coğrafi şəraitə malik olan ölkəmizdə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq genişmiqyaslı abadlıq-quruculuq işlərinin aparılması, sosial infrastruktur layihələrinin uğurlu icrası, yeni müasir turizm obyektlərinin, istirahət guşələrinin tikilib istifadəyə verilməsi əhalinin rifahına, rahatlığına, asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir.**

Paytaxtda və regionlarda insanlara müxtəlif çeşidli müasir xidmət mərkəzlərinin yaradılması həm ölkə vətəndaşları, həm də turistlər üçün respublikamızın dilbər guşələrinə ekskursiyalar təşkil etməyə, özünəməxsus adət-ənənələri, tarixi-mədəni məkanları ilə tanış olmağa vəsilə olur.

Bu məqsədlə müxtəlif infoturların, istirahət ekskursiyalarının təşkil olunması ölkəmizi tanımaq və tanıtmaq, gənc nəslin vətənsevərliyini və dünyagörüşünü artırmaq baxımından olduqca əhəmiyyətlidir.

Ədliyyə Nazirliyinin rəhbərliyi tərəfindən əməkdaşların bilik və bacarıqlarının, mənəvi-estetik dünyagörüşlərinin artırılmasına, eləcə də sağlamlığının və fiziki hazırlığının möhkəmləndirilməsinə, asudə vaxtlarının səmərəli təşkilinə daim yüksək diqqət və qayğı ilə yanaşılır, nazirliyin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin xətti ilə hər il yay mövsümündə ədliyyə işçiləri üçün respublikamızın müxtəlif bölgələrinə maraqlı ekskursiyalar təşkil olunur. Bu səyahətlər zamanı əməkdaşlar ölkəmizin tarixi yerləri, müasir infrastrukturu, gözoxşayan təbiəti ilə tanış olur, istirahətlərini mənalı və xoş keçirirlər.

Cari ilin yay aylarında nazirliyin rəhbərliyi tərəfindən ədliyyə işçilərinin ölkəmizin əlverişli iqlimi və turizm imkanları ilə seçilən məkanlarında ailəvi və kollektiv dincəlmələri üçün hərtərəfli şərait yaradılmış, o cümlədən avqust günlərində 70 nəfərdən çox ədliyyə işçisinin Qax rayonuna istirahət-gəzinti turu təşkil edilmişdir.

Əsrarəngiz təbiəti, mülayim və saf dağ iqlimi, zəngin fauna və florası, yeraltı və yerüstü su sərvətləri, çayları, şəlalələri, mineral bulaqları, meşələri, habelə ləziz mətbəxi və yüksək qo-




*Qax rayonu Heydər Əliyev Mərkəzi ilə tanışlıq*



*Ramramay şəlaləsi ilə tanışlıq*

naqpərvərliyi ilə seçilən Qax rayonu ilin bütün fəsillərində cəlbedicidir.

Qaxa səfər çərçivəsində ədliyyə işçiləri xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə əbədi ehtiram əlaməti olaraq Ulu Öndərin rayondakı abidəsini ziyarət etmiş, milli memarlıq ənənələrini özündə əks etdirən ən müasir üslubda tikilmiş Heydər Əliyev Mərkəzi ilə yaxından tanış olmuşlar. Əməkdaşlar Mərkəzdə müasir texniki avadanlıqla təchiz edilmiş salonda ümummilli liderimiz Heydər Əliyevin zəngin irsini, həyat və fəaliyyətini əks etdirən geniş ekranda yayımlanan video və fotolar, habelə Azərbaycan tarixini əks etdirən ekspozisiyalarla tanışlıqdan xoş təəssüratla ayrılmışlar. Əməkdaşlar həmçinin, Qax şəhərində Bayraq meydanı kompleksində və Bayraq muzeyində dövlət rəmzlərimizin tarixi və müasir nümunələri ilə tanış olmuşlar.

Səfər zamanı ədliyyə işçilərinə rayonun dağlarla əhatə olunmuş "El-Resort" istirahət mərkəzində mənalı və xoş vaxt keçirmək, dincəlmək, müxtəlif idman növləri ilə məşğul olmaq - volleybol, tennis oynamaq, hovuzda çimmək, musiqili-əyləncəli proqramlarda iştirak etmək üçün hər cür şərait yaradılmışdır.

İstirahət zamanı əməkdaşlar həmçinin, bölgənin mədəni-tarixi abidələri, gözəl və ecazkar təbiəti, özünəməxsus milli mətbəxi ilə tanış olmuşlar. Qax rayonunun İlisu kəndində yerləşən 75 metr hündürlükdən axan Ramramay şəlaləsini, digər görməli və mənzərəli yerlərini seyr etmək, eləcə də XVII-XVIII əsrlərə aid tarix-memarlıq abidəsi olan "Sumuq qala"ya baş çəkərək qalanın daxilində İlisu sultanlığının tarixinə aid muzey və oradakı zəngin eksponatlarla tanışlıq ədliyyə işçilərində xoş ovqat yaratmışdır.

Eyni zamanda, rayonun mərkəzində yerləşən Azərbaycanın ən cəlbedici və maraqlı turizm mərkəzlərindən biri sayılan "İçəribazar qala kompleksi"nə səfər edilərək, keçmiş yüzilliklərin memarlığı ilə daha yaxından tanış olunmuşdur.

Hər bir guşəsi əsl istirahət məkanı olan qədim tarixə, yüksək mədəniyyətə, tarixi-mədəni abidələrə, müasir infrastruktura malik bu diyara səyahət ədliyyə işçilərinin yaddaşında xoş və unudulmaz anlar kimi həkk olunur, nazirliyin rəhbərliyi tərəfindən hər bir əməkdaşın rahat və səmərəli istirahəti üçün belə gözəl imkanın yaradılması böyük məmnuniyyət hissi ilə qarşılanır.

Fürsətdən istifadə edərək, əməkdaşlarımızın hər il isti yay günlərində doğma Azərbaycanımızın füsunkar təbiətə malik olan müxtəlif rayonlarında istirahət etmələri üçün hərtərəfli şərait yaradılmasına görə ədliyyə işçiləri adından nazirliyin rəhbərliyinə dərin minnətdarlığımızı bildiririk.

**"Qanunçuluq"**



*Sumuqqala ilə tanışlıq*

### Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Əlcəzair Xalq Demokratik Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Əlcəzair Xalq Demokratik Respublikasının Ədliyyə Nazirliyi arasında 2017-ci il aprelin 16-da Əlcəzair şəhərində imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumu təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Əlcəzair Xalq Demokratik Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 avqust 2017-ci il*

### "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 496-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"İcra haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 114; 2003, N 6, maddə 277; 2004, N 8, maddə 598, N

11, maddə 901, N 12, maddə 973; 2007, N 1, maddə 3, N 6, maddə 562, N 11, maddə 1053; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 952; 2010, N 2, maddə 75, N 7 maddə 591; 2011, N 6, maddə 482, N 7, maddə 618; 2012, N 11, maddə 1052; 2013, N 6, maddə 613, N 7, maddə 787, N 12, maddə 1494; 2015, N 12, maddə 1434; 2016, N 12, maddə 2050; 2017, N 2, maddə 156) 13-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 13.1.1-ci maddəyə "məhkəmələrin qərarları" sözlərindən əvvəl "bu Qanunun 13.1.4-1-ci və 13.1.5-ci maddələrində nəzərdə tutulan hallar istisna olmaqla," sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 13.1.4-1-ci maddə əlavə edilsin:

"13.1.4-1. şəxsin saxlanılması üçün vəsaitlərin, o cümlədən alimentlərin alınması haqqında məhkəmə qərarları əsasında verilən icra vərəqələri - dərhal;".

3. 13.1.5-ci maddəyə "orderi" sözündən sonra "və məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi haqqında məhkəmə qərarları əsasında verilən icra vərəqələri" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 iyun 2017-ci il.*

### ”Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 14-cü bəndlərini rəhbər tutaraq, "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 496-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 10, maddə 836) 12.4-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

"12.4. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə məhkəmə qərarı dərhal icraya yönəldilir və həmin vaxtdan uzunmüddətli mühafizə orderinin müddəti hesablanır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 iyun 2017-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin şərh edilməsinə dair**

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Mahir Muradov (məruzəçi-hakim), İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri İlqar Cəfərovun, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin prokuroru, ədliyyə mayoru Fərəc Sayılovun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının sektor müdiri Eldar Əsgərovun, ekspert Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının professoru, hüquq elmləri doktoru Şəhla Səmədovanın, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İnqilab Nəsirovun və Bakı Apellyasiya Məhkəməsinin hakimi Mirzəli Abbasovun iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim M.Muradovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) sorğu verərək, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra - Cinayət Məcəlləsi) 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulan cinayətlərin subyektlərinin müvafiq olaraq hərbi hissəni və ya xidmət yerini ilk dəfə üç gündən az müddətə və ilk dəfə on gündən az müddətə tərk etmələri, habelə üzrlü səbəblər olmadan öz xidmət yerlərinə vax-

tında qayıtmamaları faktları üzrə cinayət işinin başlanmasının rədd edildiyi və həmin şəxslər tərəfindən altı ay və bir il ərzində təkrarən eyni əməllər törədildiyi halda, onların Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələri ilə cinayət məsuliyyətinə cəlb edilməsinin mümkünlüyünün şərh olunmasını xahiş etmişdir.

Sorğuda göstərilir ki, təkrarlığın tövsifedici əlamət kimi nəzərdə tutulduğu Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələrinin tətbiqi ilə bağlı vahid istintaq və məhkəmə təcrübəsi olsa da, əməlin təkrar törədilməsinin cinayət tərkibinin əlaməti kimi müəyyən edildiyi maddələrdə nəzərdə tutulan əmələ cinayət-hüquqi qiymət verilməsi ilə bağlı məhkəmə təcrübəsində ziddiyyətlər mövcuddur. Belə ki, bir sıra hallarda ibtidai araşdırma zamanı çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçuların hərbi hissəni və ya xidmət yerlərini özbaşına tərk etmələri və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlmədikləri faktı təsdiq olunsa da, onların həmin hərəkətləri ilk dəfə üç gündən az müddətə törətdikləri müəyyən edilir. Bu zaman ibtidai araşdırma orqanları tərəfindən həmin şəxslərin əməllərində cinayət tərkibi olmadığı üçün barələrində cinayət işinin başlanılması rədd edilir. Sonradan altı ay ərzində həmin şəxslər təkrar öz hərbi hissələrini və ya xidmət yerlərini özbaşına tərk etdikləri, yaxud üzrlü səbəblər olmadan öz xidmət yerlərinə vaxtında gəlmədikləri halda onlar barəsində olan cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarlar ləğv edilir, əməlləri Cinayət Məcəlləsinin 333.1-ci maddəsində nəzərdə tutulan cinayət tərkibini yaratdığına görə onlara həmin maddə ilə ittiham elan olunur. Eyni qayda həmin Məcəllənin 333.3-cü maddəsində nəzərdə tutulan əməli törədən şəxslər barəsində də tətbiq edilir.

Sorğuda, eyni zamanda, qeyd edilir ki, göstərilən əməllərin ilk dəfə törədilməsinə görə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarların ləğv edilməsi təcrübəsi həmin qərarların preyudisiallığını müəyyən edən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra - Cinayət-Prosessual Məcəlləsi) 39.1.7 və 65.1-ci maddələrinin tələblərindən irəli gəlir. Lakin bəzi hallarda işə baxan məhkəmələr ibtidai istintaq orqanlarının qeyd edilən mövqeyi ilə razılaşmır.

Sorğuverənin fikrincə, cinayət işinin başlanmasının rədd edilməsindən sonra təkrar eyni əməllərin törədilməsi halında onların əməllərinə hüquqi qiymət verilməsi ilə bağlı vahid məhkəmə təcrübəsinin olmaması Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin tətbiqi sahəsində ziddiyyətlər yaradır.

Sorğu ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) Preambulasında Azərbaycan xalqının Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti bəyan edilmişdir. Bu niyyətin həyata keçirilməsi məqsədilə dövlət vətəndaşlara münasibətdə vəzifələr müəyyən etmişdir.

Konstitusiyanın IV fəslində nəzərdə tutulan vətəndaşların əsas vəzifələrindən biri də vətəni müdafiədir. Konstitusiyanın 76-cı maddəsinin I hissəsinə görə, vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər.

Hərbi xidmət keçmənin qaydaları "Hərbi vəzifə və hərbi xidmət haqqında" və "Hərbi Qulluqçuların statusu haqqında" Azərbaycan

Respublikasının Qanunları, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi və digər qanunvericilik aktları ilə müəyyən olunur. Hərbi qulluqçular Azərbaycan Respublikasının qanunlarında və hərbi nizamnamələrdə müəyyən olunmuş hərbi intizama ciddi riayət etməlidirlər. Hərbi intizama ciddi riayət olunmaması cinayət qanunu ilə mühafizə olunan ictimai münasibətlərin pozulması ilə nəticələnir. Bu kateqoriyadan olan cinayətin obyekti qanunvericiliklə müəyyən edilən hərbi xidmət keçmə qaydalarıdır.

Hərbi xidmət əleyhinə olan cinayətlər sırasında Cinayət Məcəlləsinin 333-cü maddəsində müəyyən olunmuş hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri xüsusi yer tutur.

Cinayət Məcəlləsinin 333.1-ci maddəsinə əsasən, çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməməsi üç gündən artıq, lakin on gündən çox olmadıqda və ya üç gündən az olsa belə, eyni əməllər altı ay ərzində təkrar törədildikdə bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

Həmin Məcəllənin 333.3-cü maddəsinə görə, zabit heyətindən olan şəxsin, gizirin, miçmanın, müddətdən artıq hərbi xidmətdə olan hərbi qulluqçunun və ya kontrakt üzrə xidmət edən şəxsin hissəni və ya xidmət yerini özbaşına tərk etməsi, habelə üzrlü səbəblər olmadan xidmət yerinə vaxtında qayıtmaması on gündən artıq, lakin bir aydan çox olmadıqda, yaxud bir il ərzində təkrarən on gündən az, lakin üç gündən çox olduqda iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd etmək lazımdır ki, Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərhi ilə bağlı iki qərar qəbul edilmişdir.

Konstitusiya Məhkəməsi Plenumunun "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin birinci hissəsinin və 3-cü maddəsinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərh edilməsinə dair" 26 oktyabr 2001-ci il tarixli Qərarında göstərilmişdir ki, "Hərbi qulluqçuların statusu haqqında" Qanunun 2-ci maddəsinin birinci hissəsində göstərilən şəxslər öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsinə və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməməsinə görə Cinayət Məcəlləsinin 333-cü maddəsi ilə cinayət məsuliyyəti daşıyırlar.

Özbaşına tərk etmə dedikdə, komandirin (rəisin) icazəsi olmadan hərbi qulluqçunun hərbi hissənin ərazisini və ya xidmət yerini buraxıb getməsi başa düşülür. Vaxtında gəlməmə isə hərbi hissənin ərazisindən və ya xidmət yerindən qanuni əsasla buraxılmış hərbi qulluqçunun hərbi hissəyə, yaxud xidmət yerinə üzrlü səbəblər olmadan müəyyən edilmiş müddətdə gəlməməsindən ibarətdir.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1-ci maddəsinin şərh edilməsinə dair" 18 iyul 2005-ci il tarixli Qərarında qeyd olunmuşdur ki, hərbi hissəni özbaşına tərk etmənin əvvəli hərbi qulluqçunun hərbi hissəni və ya xidmət yerini tərk etdiyi andan, xidmət yerinə vaxtında gəlməmənin əvvəli isə qayıtma müddətinin bitdiyi andan hesablanır. Həmin cinayət hərbi qulluqçunun hərbi hissəyə və ya xidmət yerinə

gəldiyi, yaxud onun tutulub saxlanıldığı andan bitmiş hesab olunur.

Qeyd edilməlidir ki, Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin dispozisiyasında əməlin müəyyən müddət ərzində təkrar törədilməsi hərbi hissəni özbaşına tərk etmə cinayətinin obyektiv cəhətinin tərkib əlaməti kimi nəzərdə tutulmuşdur. Belə ki, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməyə görə Cinayət Məcəlləsinin 333.1-ci maddəsi ilə cinayət məsuliyyəti o zaman yaranır ki, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməmə müddəti üç gündən artıq, lakin on gündən çox olmasın, yaxud üç gündən az olsa da, eyni əməllər altı ay ərzində təkrar törədilmiş olsun.

Bu Məcəllənin 333.3-cü maddəsində nəzərdə tutulmuş cinayətin obyektiv cəhəti hissəni və ya xidmət yerini özbaşına tərk etmənin və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında qayıtmamanın on gündən bir ayadək müddətdə davam etməsindən, yaxud üç gündən on günədək müddətdə, lakin bir il ərzində təkrar törədilməsindən ibarətdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, sorğuda qaldırılan məsələnin düzgün həll edilməsi məqsədilə cinayətlərin təkrar törədilməsi anlayışına bir daha nəzər yetirilməsi vacibdir.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.5, 61.1.1 və 65-ci maddələrinin şərh edilməsinə dair" 18 mart 2013-cü il tarixli Qərarında göstərilmişdir ki, hüquq nəzəriyyəsində "təkrarlıq" termini geniş və dar mənalarda istifadə olunur. Geniş mənada təkrarlıq, cinayətin əvvəllər hər hansı cinayət törətmiş şəxs tərəfindən törədilməsi deməkdir. Belə təkrarlıq həm də ümumi təkrarlıq adlanır. Təkrarlığın bu cür geniş anlayışı özündə həmcins və müxtəlif növlərdən olan bir neçə cinayətin törədilməsini əks etdirən "cinayətlərin çoxluğu" terminində ifadə olunur.

Qanunvericiliyin tələblərinə müvafiq olaraq, çoxluğu təşkil edən bütün cinayətlər eyni şəxs tərəfindən törədilməlidir və təqsirləndirilən şəxsin cinayətlərdə hansı rolu (icraçı, təşkilatçı, təhrikçi və ya köməkçi) yerinə yetirməsi heç bir məna kəsb etmir. Əgər şəxs törətdiyi əmələ görə cinayət məsuliyyətindən azad olunubsa və ya törətdiyi hərəkətlərə görə məhkumluğu ödənilibsə, habelə cinayət məsuliyyətinə cəlb olunma müddəti başa çatıbsa, çoxluğun müəyyən edilməsi zamanı bu əməllər nəzərə alınmır.

Beləliklə, cinayətlərin çoxluğu dedikdə, təqsirli şəxs tərəfindən cinayət məsuliyyətinə səbəb olan ardıcıl əməllərin törədilməsi və ya əvvəllər törədilmiş hərəkətlərə görə cinayət məsuliyyətinə cəlb olunması ilə bağlı məhdudiyyət müddəti ərzində yeni cinayətlərin törədilməsi halları başa düşülür.

Cinayət qanunvericiliyində cinayətlərin çoxluğu termininin adı çəkilməsə də, Cinayət Məcəlləsinin 16, 17 və 18-ci maddələrində cinayətlərin çoxluğuna aid olan cinayətlərin təkrar törədilməsi, cinayətlərin məcmusu, cinayətlərin residivi və onun növləri ilə bağlı olan məsələlər tənzimlənir.

Təkrarlıq institutu cinayətlərin çoxluğunun ən mürəkkəb formasıdır və Cinayət Məcəlləsində dar mənada istifadə olunur.

Həmin Məcəllənin 16-cı maddəsində təkrarlığın iki müstəqil növü müəyyən olunmuşdur:

- Məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş cinayətin iki və ya iki dəfədən çox törədilməsi (Cinayət Məcəlləsinin 16.1-ci mad-

dəsi);

- Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda həmin Məcəllənin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi (Cinayət Məcəlləsinin 16.2-ci maddəsi).

Həmçinin Cinayət Məcəlləsinin 61-ci maddəsində cinayətlərin təkrar törədilməsi cəzanı ağırlaşdıran hallara aid edilir.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, təkrarlıq yalnız o hallarda yaranır ki, əməllərin hər birində müstəqil cinayətin tərkib əlamətləri olsun, yəni ayrılıqda götürülmüş hər bir əməldə cinayət tərkibi olmalıdır.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyə görə, hərbi qulluqçunun üç günədək müddətdə hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməsi, yaxud üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməməsi cinayət sayılmır və yalnız intizam məsuliyyəti yaradır ("Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1-ci maddəsinin şərh edilməsinə dair" 18 iyul 2005-ci il tarixli Qərar).

Beləliklə, qanunverici tərəfindən Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulan əməllərin təkrar törədilməsi cinayət tərkibini yaradan kriminallaşdırıcı əlamət kimi müəyyən edilib və belə təkrarlığın Cinayət Məcəlləsinin 16 və 61-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin təkrar törədilməsi və cəzanı ağırlaşdıran hal kimi qəbul edilməsi ilə heç bir əlaqəsi yoxdur.

Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərhi ilə bağlı əvvəlki qərarlarında formalaşdırdığı hüquqi mövqeyə uyğun olaraq aşağıdakıları qeyd edir.

Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin dispozisiyasında göstərilən hərəkəti (hərəkətsizliyi) hərbi qulluqçunun ilk dəfə etməsi onun barəsində aparılan ibtidai araşdırmanın cinayət işinin başlanmasının rədd edilməsi və ya onun bu hərəkətinə (hərəkətsizliyinə) görə intizam tənbehi alması ilə nəticələnməsinə baxmayaraq, ikinci dəfə müvafiq olaraq altı ay və bir il ərzində eyni əməlləri təkrar törətməsi cinayət məsuliyyətinə səbəb olacaqdır.

Yalnız cinayət qanunvericiliyində nəzərdə tutulmuş hallarda intizam və inzibati xətaların təkrar törədilməsi cinayət hesab edilir.

Xətanın çərçivəsini qanunverici müəyyən edir və qanunverici hansı növ xətanın təkrar törədilməsinin dövlət mənafelərinə hansı dərəcədə zərər vurması ehtimalının reallığından çıxış edərək onun cinayət hesab olunmasını israr edir.

Beləliklə, qanunverici hərbi hissələrin döyüş qabiliyyətinin yüksək hərbi intizamla bağlı olduğunu nəzərə alaraq, Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulmuş müddətlərdə göstərilən əməllərin təkrar törədilməsini cinayət hesab etmişdir.

Cinayət Məcəlləsinin Xüsusi hissəsində nəzərdə tutulan əməllərin törədilməsinə görə cinayət işinin başlanması və cinayət işinin başlanmasının rədd edilməsi qaydaları cinayət-prosessual qanunvericiliyinə uyğun həyata keçirilir.

Cinayət-Prosessual Məcəlləsinin 46.3-cü maddəsinə görə, cinayət işinin başlanması üçün əsas cinayətin əlamətlərinə işarə edən kifayət qədər dəlillərin olmasıdır. Cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsini və cinayət təqibini istisna edən halların olmadığını güman etməyə əsaslar mövcuddursa, öz səlahiyyətləri daxilində fəaliyyət göstərən təhqiqatçı, müstəntiq və ya prokuror dərhal cinayət işi başlamalıdır.

Həmin Məcəllənin 212-ci maddəsinə uyğun

olaraq, cinayət işinin başlanması üçün səbəblərin qanunsuz olduğu və ya əsasın olmadığı halda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar çıxarır. Təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarından müvafiq olaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, yuxarı prokurora, yaxud məhkəməyə şikayət verilə bilər. Cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərardan verilmiş şikayət üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya yuxarı prokuror göstərilən qərarı ləğv edir, 10 (on) gündən artıq olmayan müddətdə əlavə yoxlama keçirilməklə və yaxud keçirilməməklə cinayət işinin başlanması haqqında qərar qəbul edir və onu ibtidai istintaqın aparılması üçün müstəntiqə göndərir, yaxud cinayət işinin başlanmasının rədd edilməsi haqqında çıxarılmış qərarı dəyişdirilmədən saxlayır.

Göstərilən cinayətlər üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya yuxarı prokurorun cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarı ləğv etmək hüququnun olması ilə bağlı sorğuverənin qənaətinə gəldikdə isə qeyd etmək lazımdır ki, cinayət-prosessual qanunvericiliyi ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və ya yuxarı prokurora yalnız qanunsuz və əsassız qərarları ləğv etmək hüququ vermişdir. Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 84 və 85-ci maddələrində prokuror və müstəntiqin hüquq və vəzifələri sadalanmışdır. Həmin Məcəllənin 84.5.8-ci maddəsinə görə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror təhqiqatçının və ya müstəntiqin qanunsuz və əsassız qərarlarını ləğv etmək hüququna malikdir. Əgər prokuror cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarı qanunsuz və əsassız hesab edirsə, həmin qərarı ləğv edir və 10 gün müddətində cinayət işinin başlanması haqqında qərar qəbul edir.

Sorğuverən Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulan cinayət faktları üzrə cinayət işinin başlanmasının rədd edilməsi barədə qərarın ləğv edilməsi təcrübəsinin mövcudluğunu Cinayət-Prosessual Məcəlləsinin 39.1.7-ci maddəsi ilə əlaqələndirmişdir. Həmin maddəyə görə, şəxs barəsində eyni ittiham üzrə təhqiqatçının, müstəntiqin və ya prokurorun cinayət işi başlanmasının rədd edilməsi və ya ona xitam verilməsi haqqında ləğv edilməmiş qərarı olduqda cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir (o cümlədən cinayət işi başlana bilməz, başlanılmış cinayət işi üzrə icraata isə xitam verilməlidir).

Bununla bağlı qeyd edilməlidir ki, Cinayət-Prosessual Məcəlləsinin 39.1.7-ci maddəsi şəxs barəsində yenidən cinayət işi başlanması üçün yalnız eyni ittiham üzrə cinayət işinin başlanmasının rədd edilməsi haqqında ləğv edilməmiş qərarın mövcudluğunu istisna edir. Həmin Məcəllənin 7.0.20-ci maddəsinə görə, ittiham - bu Məcəllədə müəyyən olunmuş qaydada şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş konkret əməli törətməsinin israr edilməsidir.

Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddəsində nəzərdə tutulan ilk dəfə və təkrar törədilən cinayətlər isə müxtəlif vaxtlarda törədilən konkret hüquqpozmanı nəzərdə tutur, cinayətin obyektiv cəhətinə görə həmin əməllər bir-birindən fərqlənir. Əgər şəxs tərəfindən törədilən əməldə cinayət tərkibi olmadığına görə

(hərbi hissədən yayınma üç gündən azdırsa və s.) cinayət işinin başlanması rədd edilmişdirsə, yenidən həmin əməlin törədilməsinə görə cinayət işinin başlanması üçün əvvəlki iş üzrə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın ləğv edilməsi zərurəti yoxdur. Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 65.1-ci maddəsi də müəyyən edir ki, cinayət prosesini həyata keçirən orqanın ləğv edilməmiş qərarı həmin məsələ üzrə yeni qərar çıxarılmasına yol vermir. Artıq qeyd olunduğu kimi, əməlin ilk dəfə törədilməsi ilə həmin əməlin təkrar törədilməsi eyni məsələ hesab edilə bilməz.

Beləliklə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror müstəntiq və ya təhqiqatçı tərəfindən qəbul edilən hər bir qərarın qanuniliyini yoxlayır və onların qanunsuz və ya əsassız olduğunu aşkar etdikdə, belə qərarı ləğv edir. Bu cür yoxlamaları prokuror həm öz təşəbbüsü ilə, həm də müstəntiq və ya təhqiqatçının qərar və ya hərəkətlərindən verilmiş şikayət üzrə həyata keçirir. Qanunvericilikdə qanuni və ya əsaslı qərarların ləğv edilməsi halı nəzərdə tutulmamışdır.

Yuxarıda göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllər ilk dəfə müvafiq olaraq üç və on gündən az müddətə törədildiyindən cinayət tərkibinin olmamasına görə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın mövcudluğu həmin əməlin təkrar törədilməsinə görə cinayət işinin başlanmasına və şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə mane olmur. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror Cinayət-Prosessual Məcəlləsinin 84.5.8-ci maddəsinə uyğun olaraq təhqiqatçının və ya müstəntiqin yalnız qanunsuz və əsassız qərarlarını ləğv etmək hüququna malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllər ilk dəfə müvafiq olaraq üç və on gündən az müddətə törədildiyindən cinayət tərkibinin olmamasına görə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın mövcudluğu həmin əməlin təkrar törədilməsinə görə cinayət işinin başlanmasına və şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə mane olmur. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 84.5.8-ci maddəsinə uyğun olaraq təhqiqatçının və ya müstəntiqin yalnız qanunsuz və əsassız qərarlarını ləğv etmək hüququna malikdir.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr: Fərhad Abdullayev**

*Bakı şəhəri, 2 iyun 2017-ci il*